# Nitqi təsirin dilçilikdə araşdırılması məsələləri

**Könül Həbibova**
*AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun*
*Kompüter dilçiliyi şöbəsinin*
*böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** konul_habibova@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof.İ.B. Kazımov,
filol.ü.f.d., dos. T.R. İsmayılova

**Açar sözlər:** nitq, nitqi təsir, manipulyasiya, informasiya, dilçilik
**Ключевые слова:** речь, речевое воздействие, манипуляция, информация, лингвистика
**Key words:** speech, speech impact, manipulation, information, linguistics

Dilçilik elminin bir qolu olan psixolinqvistika məlumatın dil nə nitq vasitəsilə ötürülməsi qəbul edilməsi, dərk edilməsi, təhlil edilməsi və s. kimi məsələlər ətrafında aparılan tədqiqat və elmi araşdırlmalar hesabına XX-XXİ əsrlərdə xüsusi intensivliklə inkişaf etməyə başladı. Verbal və qeyri-verbal nitqi təsir məsələlərinə bir çox elmi əsərlər həsr edilib (A.Baranov, P.Parşin[2], R.Balakar [3], A.A. Leontyev[15] və s.).

İnsan beynini sosiallaşdıran strukturların araşdırılması sahəsində ilk tədqiqatçılar sırasında neyrolinqvist A. R. Luriyanın tədqiqatlarını, fizioloq A. A. Uxtomskinin "digər insan üzərində dominant" anlayışı ilə bağlı araşdırmalarını da xüsusilə qeyd etmək lazımdır.

Bu sahədə elmi araşdırma aparan tədqiqatçıların əksəriyyəti (K.Sedov [23], İ.Sternin [24]) haqlı olaraq qeyd edir ki, istənilən ünsiyyət bütün hallarda bu və ya digər dərəcədə verbal və ya qeyri verbal olaraq təsirdir. Bu baxımdan müasir elmin qarşısında dayanan əsas məsələlərdən biri kommunikasiya prosesi zamanı yaranan bu təsiri, onun mexanizmlərini, ifadə vasitələrini və s. müəyyən etmək, ona qarşı əkstəsir vasitələrini araşdırıb ortaya çıxarmaqdır. Nitqi təsir məsələsinin araşdırılması müasir antropoloji dilçiliyin ən mühüm məsələləri sırasındadır.

İnsanın kommunikativ fəaliyyətinin o sahəsini nitqi təsir adlandırmaq olar ki, burada ünsiyyət psixologiyasının (A.A. Leontyev[15], A.N.Leontyev [16]) propaqandanın (V.Karaban [8]), kütləvi kommunikasiya və reklamların (İ.Sternin [24]), sosial sahə və siyasətin (O. Parşina [19]), praqmalinqvistikanın (V. Karasik [10], Ye. Paduçeva [18], L. Fedorova [26]) maraqları üst-üstə düşsün. Bu fenomenin mürəkkbliyi onu bir-birindən fərqli müxtəlif istiqamətlərdə araşdırılmasına geniş imkan yaradır. Bunlar arasında nitqi təsir məsələlərininin nəzəri və praktik və ritorik cəhətləri (İ. Qorelov, K. Sedov [7], İ. Sternin [24] və b.), başqasının davranışlarını idarə etmək haqqında məşhur tədqiqatları (A. Morozov[17], S. Kara-Murza [9] və b.) və psixokorreksiya və psixoterapevtik baxımdan aparılan araşdırmaları (V. Levkoviç [14] və b.), psixoloji müdafiə ilə bağlı tədqiqatları (L. Bojoviç [4] və b.) və s.-ni nümunə gətirmək olar.

Nitqi təsir ilə bağlı elmi ədəbiyyatda rastlaşdığımız araşdırmaları aşağıdakı istiqamətlərdə daha çox aparıldığını deyə bilərik: linqvistik (A. Baranov, P. Parşin [2] və b.), semiotik (Ye. Paduçeva [18] və b.) və psixoloji [22, 6].

Qeyd etmək lazımdır ki, bir çox tədqiqatçıların fikrincə, linqvistik və semiotik

yanaşmaların ayrı-ayrı istiqamətlər kimi səciyyələndirilməsi, əslində, şərti xarakter daşıyır. Belə ki, semiotik yanaşmanı linqvistik yanaşmanın bir cəhəti kimi qeyd etmək də olar.

Təxmin 70-ci illərin əvvəllərindən başlayaraq post-Sovet məkanında nitqi təsirə həsr edilən ilk psixolinqvistik araşdırmalar meydana gəldi [4; 22; 21]. Adresantın şüuruna yönələn bu təsir növünün araşdırılması onun verbal və qeyri-verbal mexanizmlərinin müəyyən edilməsi ilə bağlı idi: "yalanın linqvistikası" (V. Levkoviç [14], *linqvistik* demaqogiya [22], *nitq manipulyasiyaları* (A. Baranov [2], V.Karasik [10]) və s. bu qəbildən olan məsələlərdir.

Fikrimizcə, elmi ədəbiyyatlarda nitqi təsir haqqında formalaşan yanaşmanın əsası, elə həmin illərdə yaradılmış psixolinqvistik məktəb tərəfindən qoyulmuş və bu, hal-hazırda nitq fəaliyyətinin nəzəriyyəsi adı ilə tanınır. Nitq fəaliyyəti nəzəriyyəsinin əsasını qoyan A.N. Leontyev qeyd edirdi ki, insanlar arasındakı nitq ünsiyyəti "insanlar arasında kommunikantların birgə həyata keçirdiyi və müəyyən məqsədlərə tabe olan məqsədyönlü aktiv fəaliyyətləridir" [16, 8].

V. N. Kulikov ünsiyyətin təbiətinin mürəkkəbliyini vurğulayaraq, burada psixoloji təsirlə yanaşı, ünsiyyət və informasiya mübadiləsinin olması faktını da xüsusilə qeyd edir [12]. Lakin bu cür yanaşma bir o qədər də inandırıcı və əsaslı deyil. Təsir və qarşılıqlı təsir fenomenini ilə bağlı tədqiqat aparan tədqiqatçıların əksəriyyəti haqlı olaraq belə hesab edirlər ki, istənilən ünsiyyət və ya informasiya mübadiləsi prosesi adresant tərəfindən adresata hər hansı bir təsir göstərilməsi ilə müşayiət edilir və nəticədə bu təsir ünsiyyətin məqsədlərinə nail olmaq, eləcə də şəxsi potensialı xarakterizə etmək iqtidarında olan xüsusi fəaliyyət növü kimi ünsiyyətin psixoloji effektivliyi və nəticəsini şərtləndirir. R. M. Blakar doğru olaraq qeyd edir ki, dildən hər cür və hər bir şəkildə istifadə strukturlaşdırılmış və təsiredici effektlə nəticələnir [3]. Kommunikasiyanın effekti insanların fikir və davranışlarına təsir effektidir [1].

Tədqiqatçılar iddia edirlər ki, istənilən hadisə ilkin başlanğıcda neytral xarakterə malik olur. Məhz inandırma istəyi nəticəsində ünsiyyət məna kəsb edir, bizim koqnitiv və emosional aksentlərin, durğu işarələrinin mövqelərini müəyyənləşdirir. İnandırma istəyi baş verən hadisə və informasiyanın təhrif edilməsinə əsaslı təsir edərək davranış motivasiyasının əsasında dayanır [6].

Nitqi təsir fenomeni ilk növbədə danışanın (nitqi təsir subyektinin) məqsədindən birbaşa asılıdır. Nitqi təsir məsələsi ilə bağlı elmi ədəbiyyatlarda iki nöqteyi-nəzər mövcuddur. Belə ki, bir qrup tədqiqatçılar (A. Baranov, P. Parşin [2], V. Karasik [10], G. Poçeptsov [20], Ye. Tarasov [25], L. Fedorova [26] və b.) nitqi təsiri təkistiqamətli, qeyri-bərarbər mövqeli fəaliyyət növü kimi izah edirlər. Qeyd edirlər ki, bu zaman nitq kommunikasiyasındakı partnyor passiv funksiyada yerinə yetirməklə danışanın təsirinə məruz qalır. Nitqi təsirin bu şəkildə dərk edilməsi onu manipulyasiya hadisəsi ilə yaxınlaşdırır. Düşünürük ki, bu cür şərh daha doğrudur. Belə ki, nitqi təsir termininin internet məkanı üzərindən digər dillərdə doğru tərcüməsinə axtarış verərkən, onun məhz manipulyasiya kimi tərcümə edildiyinin şahidi oluruq. Məsələn: *речевое воздействие – лингв. linguistic manipulation* [28].

Lakin, bununla yanaşı, nitqi təsiri qarşılıqlı nitq mübadiləsi anlayışı ilə yaxınlaşdıran fikirlər də mövcuddur. Bu cür yanaşmanın əsasında Kennet Burkun "identifikasiya" konsepsiyası dayanır. Təbii dildə ünsiyyət prosesi "ünsiyyət situasiyasının iştirakçıları tərəfindən... dünya modelləri üzərində bərqərar olan prosedurların özünəməxsusluğudur" [2, 11]. Bununla yanaşı, hər iki iştirakçının bilik strukturunda dəyişikliklərin baş verməsi fakt da qeyd edilir [13].

"Bir insanın digər insana və ya insan kollektivinə nüfuzunu şərtləndirən nitqi təsir nəticəsində dil yaranmışdır... Bu baxımdan nitqi təsirin anti-bioloji, sosial mahiyyətli

olduğunu iddia etmək tam doğru olar". Bu mülahizəni irəli sürən müəllif daha sonra qeyd edir ki, insanın ictimai varlıq kimi formalaşması məhz nitqi təsir hesabına mümkün olub [11, 151]. Nitqi təsir bütün digər təsir növləri ilə müqayisədə əsas və prioritetdir. Biliklər, dünyagörüşü, dəyərlər, şəxsiyyətin normaları və s. nitqi təsirlə formalaşır.

Linqvistik fəlsəfə sahəsində eyni yanaşma V. fon Humboldtun və onun davamçılarının əsərlərində də müşahidə edilir. L. Vaysgerber qeyd edir ki, insana təsir baxımından sadəcə nitq deyil, bütövlükdə dil də öz spesifik strukturu baxımından nəzərdən keçirilməlidir [5].

Ümumiyyətlə, nitqi təsir dinamik (təsirin həyata keçirilməsi) və statik (perlokutiv effekt) mövqelərdən də nəzərdən keçirilə bilər. Birinciyə daha çox Ye. F. Tarasovun bu məsələ ilə bağlı geniş şərhini misal gətirmək olar. O, öz araşdırmasında nitqi təsiri geniş mənada istənilən məqsədyönlü (qeyri-bərabər mövqedən reallaşdırılan) monoloji nitqi ünsiyyət, dar mənada isə KİV və təşviqat kampaniyaları çərçivəsində dialoji (bərabər mövqeli) ünsiyyət təsiri kimi şərh edir [25, 5].

Nitqi təsir məsələsi bir çox aspektlərdə anlama, dərketmə ilə bağlıdır. Bu məqamla bağlı olaraq K. F. Sedov yazır ki, nitqin dərk edilməsi adresatın mənadan məzmuna doğru istiqamətlənən passiv hərəkəti deyil [23, 186]. Bu, əslində, elə bir mürəkkəb və bütöv psixoloji prosesdir ki, burada qabaqcadan düşünmə (antipasiya) və anlayış prosesi quruluşunun böyük rol oynayır. Ünsiyyətin ilk dəqiqələrindən başlayaraq dərk edən tərəf qarşılıqlı şəkildə düşünmə aktivliyi göstərir ki, bu da diskursun qabaqcadan düşünmə modelləşdirilməsinə, nitqin illokutiv məzmununa yönəlir. "Nitq zamanı biz nitqi deyil, nitqini bizə yönəldən insanı başa düşürük" [27, 33].

Onu da əlavə etmək lazımdır ki, nitqi təsir müxtəlif sahələrdə özünəməxsus keyfiyyətlərə malikdir. Məsələn, müəllimin şagirdə, rəhbər işçinin öz işçilərinə olan təsiri, təbii ki, avtoritet mövqeyi ilə birbaşa asılıdır və demək olar ki, dominantlıq effektinə malikdir. Lakin satıcı və alıcı arasındakı təsir bir qədər mürəkkəb xarakterlidir. Belə ki, bu sahədə hər kəs öz mövqeyini müdafiə etməyə (satıcı baha satmağa, alıcı isə ucuz almağa) cəhd edir və s.

**Məqalənin aktuallığı.** Nitqi təsirin araşdırılması Azərbaycan dilçiliyində "manipulyasiya" hadisəsinin də öyrənilməsinə, neyrolinqvistik proqramlaşdırma ilə bağlı yeni araşdırmalara geniş imkanlar aça bilər. Bu baxımdan nitqi təsirin araşdırılması və onun fərqli tədqiqatlarda statusunun hansı şəkildə müəyyən edilməsi aktual məsələlər sırasında yer alır.

**Məqalənin elmi yeniliyi.** Azərbaycan dilçiliyində nitq mədəniyyəti ilə bağlı bir sıra araşdırmalar, elmi ədəbiyyatların olmasına baxmayaraq, bunun əsasında dayanan nitqi təsirlə bağlı elmi araşdırmalara, demək olar ki, rast gəlinmir. Məqalədə ilk dəfə olaraq, nitqi təsir fenomeninin özəllikləri, xüsusiyyətlərinin dünya dilçiliyində nə dərəcədə işıqlandırılması və bu hadisəyə olan münasibət geniş şəkildə nəzərdən keçirilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Балл Г.А. О понятиях «воздействие», «действие» и «операция» // Вопросы психологии, 1947, № 4.

2. Баранов А. Н., Паршин П. Б. Языковые механизмы вариативной интерпретации действительности как средство воздействия на сознание// Роль языка в средствах массовой коммуникации. М., 1986.

3. Блакар Р. М. Язык как инструмент социальной власти. // Язык и моделирование

социального взаимодействия. М., 1987.
4. Божович Л. И. Личность и ее формирование в детском возрасте. М., 1968.
5. Вайсгербер Л. В. Родной язык и формирование духа. М., 1993.
6. Верещака М. В., Никифорова И. В., Мукина Т. И. Язык и его социальная власть // Мир русского слова, 2002, № 5
7. Горелов И. Н., Седов К. Ф. Основы психолингвистики. М., 2001.
8. Карабан В. И. Пропаганда в свете теории речевых актов // Социальная лингвистика и общественная практика. Киев: Вища шк., 1988.
9. Кара-Мурза С. Г. Манипуляция сознанием. Учебное пособие. М.: ЭКСМО-пресс, 2001.
10. Карасик В. И. Языковой круг: личность, концепты, дискурс-Волгоград: Перемена, 2002.
11. Кинцель А. В. Психолингвистические механизмы речевого воздействия // Известия Алтайского государственного университета: Филология и искусствоведение. 2013, 4(80), том. 2.
12. Куликов В. Н. Проблемы психологического самовоздействия / Проблемы психологического воздействия. Межвуз. сб. научн. тр. Иваново, 1979.
13. Купина Н. А., Михайлова О. А. Лингвистические проблемы толерантности // Мир русского слова, 2002, № 5
14. Левкович В. П. Воздействие моральных норм на сознание и поведение личности // Проблемы психологического воздействия. Межвуз. сб. научн. тр. Иваново, 1979.
15. Леонтьев А. А. Основные направления прикладной психолингвистики в СССР // Речевое воздействие. Проблемы прикладной психолингвистики. М.: Наука, 1972.
16. Леонтьев А. Н. Потребности, мотивы и эмоции. М.: МГУ, 1971.
17. Морозов А. В. Психология влияния. СПб.: Питер, 2001.
18. Падучева Е. В. Семантические исследования. М.: Шк. «Яз. рус. культуры», 1996.
19. Паршина О. Н. Российская политическая речь: Теория и практика. М.: Изд-во ЛКИ, 2007.
20. Почепцов Г.Г. Коммуникативные аспекты семантики. Киев: Вища шк., 1987, 131 с.
21. Психолингвистические проблемы массовой коммуникации М.: Наука, 1974.
22. Речевое воздействие. Проблемы прикладной психолингвистики. М.: Наука, 1972.
23. Седов К. Ф Речевая манипуляция как стремление к власти над человеком // Межвуз. сб. науч. тр. Саратов: Изд-во Сарат. ун-та, 2004 Вып. 4
24. Стернин И. А. Практическая риторика как предмет исследования. / Речевое общение. Спец. Вестник-Красноярск, 2000, вып. 2
25. Тарасов Е. Ф. Речевое воздействие: методология и теория // Оптимизация речевого воздействия. М.: Наука, 1990.
26. Федорова Л. Л. Типология речевого воздействия и его место в - структуре общения // Вопросы языкознания, 1991, № 6
27. Харченко Е. В., Тарануха Л.В. Профессиональное общение и речевое воздействие в современной России // Вестник ЮУрГУ, Серия «Лингвистика», вып. 8, 2009, № 2,
28.https://multitran.ru/c/m.exe?CL=1&s=%F0%E5%F7%E5%E2%EE%E5+%E2%EE%E7%E4%E5%E9%F1%F2%E2%E8%E5&l1=1

**К. Габибова**

## Вопросы исследования речевого воздействия в лингвистике

### Резюме

В лингвистике существуют разные подходы к феномену речевого воздействия. В статье представлены сравнения идей и суждений об этой воздействии и предприняты попытки определить концепцию речевого воздействия. В конце исследования делается вывод о том, что речевое воздействие на самом деле является манипулятивным. Даже при самом простом обмене информацией лицо, предоставляющее информацию, интерпретирует ее в своих собственных интересах.

**K. Habibova**

## Issues of Researching Speech Impact in Linguistics

### Summary

In linguistics, there are different approaches to the phenomenon of speech influence. The article presents comparisons of ideas and judgments about this impact and attempts are made to define the concept of speech impact. At the end of the study, it is concluded that the speech impact is actually manipulative. Even with the simplest exchange of information, the person providing the information interprets it in their own interests.

**Redaksiyaya daxil olub:** 04.02.2019